# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №15 (55) • 13.06.2011

AzadliqRadiosu.az

İlham Əliyev: **«Azərbaycan qazı 100 ilə bəsdir»** səh.2

**Mübarəkin heykəli Xırdalandan götürüldü** səh.3

**Yaxın həftələrdə iqtidar-müxalifət dialoqu ola bilər** səh.4

Edvard Nalbandyan: **«Azərbaycan razılıq versə...»** səh.5

**О проблемах победы для Алиева** səh.7

**Universitetlərdə təhsil haqlarının məxfi artımı...** səh.11

**İranda azərbaycanlı yazar Səid Muğanlı həbs olunub** səh.13

**Polkovnik Budanov öldürülüb** səh.15

# Polisin vətəndaşdan pul aldığı video araşdırılır



İyunun 6-da Bakıda çəkilmiş video bir polis əməkdaşının sürücüdən pul aldığını əks etdirir səh.6

## Səfirlər Azərbaycan müxalifəti ilə yenə qapalı görüşdü

*Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Mübariz Qurbanlı isə deyir ki, diplomatların İctimai Palata üzvləri ilə görüşü onlara, sadəcə, gülməli görünür:* «Ona görə ki, heç bir ictimai dayağı və rəsmi qeydiyyatı olmayan, sadəcə, adı olan bir qurumla böyük-böyük dövlətlərin səfirləri görüşür və bu görüşü də ictimailəşdirib, onun ətrafında hay-küy yaratmaq istəyirlər».

səh.8



Thomas de Waal: **"Qarabağa aid ortada 3 səhifə, 14 bənddən ibarət bir sənəd var..."** səh.5

**ARDNŞ 235 milyon dollarlıq sifarişini niyə «Tekfen»ə verib?** səh.9-10

**Türkiyə düzgün yoldadırmı?** səh.14

# İlham Əliyev: «Azərbaycan qazı 100 ilə bəsdir»

**«Ümid edirəm ki, «Cənub qaz dəhlizi» reallaşacaq və Azərbaycan «Şahdəniz»dən əldə etdiyi qazı Avropa bazarına ötürəcək.**

*«Şahdəniz»in ikinci stadiyasının işə düşməsi üçün «Cənub dəhlizi» əsas olacaq. Bu, həm də Azərbaycanla Avropanın münasibətlərinin yeni mərhələsi olacaq».* Bunu prezident İlham Əliyev 18-ci Beynəlxalq Xəzər Neft-Qaz Sərgisində çıxışı zamanı deyib. Dövlət başçısı qeyd edib ki, 1995-ci ildən Azərbaycanın iqtisadiyyatına 97 milyard dollar sərmayə yatırılıb. Bunun 42 milyard dolları neft-qaz sahəsinə yatırılıb. Onun da əksəriyyəti xarici sərmayədir.

Azərbaycanda neft pullarından səmərəli istifadə edildiyini deyən İlham Əliyevin fikrincə, 1999-cu ildə yaradılan Azərbaycan Dövlət Neft Fondu dünyada ən şəffaf qurumlardan biridir. Məhz bu



İlham Əliyev

vəsaitlərin hesabına Azərbaycanda yoxsulluq 49 faizdən 9 faizə enib.

Qaz məsələlərindən danışan prezident bildirib ki, «Şahdəniz»in kəşfi dünyada qaz məsələlərinə ciddi təsir edib: *«İndi Azərbaycan dünyada təkcə neft deyil, həm də qaz ölkəsi kimi tanınır. Vaxtilə «Şahdəniz» yatağının kəşfi diqqəti cəlb etməmişdi, amma indi dünyada bu yatağa böyük maraq var. Azərbaycan qaz dəhlizlərinin də şaxələndirilməsinin tərəfdarıdır və bu sahədə işləyir. Hazırda Azərbaycan qazı 4 istiqamətdən dünya bazarına çıxarılır. Azərbaycanın əsas ixrac neft-qaz kəmərlərinin sayı 7-yə çatır. Bizə qanunlarla tənzimlənən böyük bazarlar lazımdır».*

İlham Əliyev bəyan edib ki, hazırda Azərbaycanın qaz ehtiyatı 2.2 trilyon kubmetrə bərabərdir: *«Bu, ən azı 100 il bizə və istehlakçılara kifayət edəcək. Proqnozlarımız isə daha çoxdur».*

***İlqar Rəsul***



Arxiv şəkil

# Müəllim israrla direktorun onlardan pul tələb etdiyini deyir

**Salyan rayonunda aparılan abadlıq işləri ilə bağlı müəllimlərdən və həkimlərdən pul yığıldığı barədə məlumat vermişdik. Həkimlərdən aldığımız məlumata görə, artıq onlardan pul yığılması dayandırılıb.**

Amma müəllimlər hələ də pul yığımının davam etdiyini bildirirlər. AzadlıqRadiosuna müraciət edən Salyan rayonunun Pambıqkənd orta məktəbin ibtidai sinif müəllimi, Yeni Azərbaycan Partiyasının üzvü Firudin Əsgərov iddia edir ki, məktəb direktoru Dilbər Əliyeva ondan 40 manat, həmin məktəbdə işləyən həyat yoldaşından isə 20 manat pul istəyib. Onun sözlərinə görə, direktor müəllimlərdən pul yığılması ilə bağlı göstərişin rayondan gəldiyini deyib: *"May ayının maaşını alanda direktor məni otağına çağırıb dedi ki, sənin adına 40, yoldaşının da adına 20 manat pul yazmışam və siz o pulu verməlisiniz. Mən dedim ki, aldığım maaşla özümü dolandıra bilmirəm, həm də şəkər xəstəsiyəm, müalicəmə pul tapmıram. Mən 200 manat, yoldaşımsa 100 manat maaş alır. Dedi ki, bizə rayondan göstəriş verilib".*

**"MƏKTƏBİN ABADLIĞINA 200 MANAT PULUM ÇIXIB, PUL YIĞSAM ELƏ ONU YIĞARAM"**

Həmin məktəbin direktoru Dilbər Əliyeva isə müəllimlərdən pul yığılması ilə bağlı məlumatları təkzib edir. O bu barədə danışan müəllimi qərəzli olmaqda ittiham edir: *"Əgər belə bir şey olsa, bütün rayon məktəblərində olar. Misal üçün, mən öz məktəbimizin həyətində abadlıq işləri aparmışam, buna 200 manatdan çox pulum çıxıb, elə yığsam onu yığaram. Plakatlar hazırlatdırmışam, pul yığmaq olsa elə müəllimlərə deyərəm 3-5 manat köməklik eləsinlər. Öz cibimin pulu ilə düzüb-qoşuram abadlıq edirəm, ağaclar alıb əkirəm. Sözümün canı odur ki, əgər belə məsələ olsa rayondakı başqa məktəblərdən də zənglər olar bu barədə. Mən tək niyə pul yığmalıyam ki, belə şey olar?! Mən heç kimi otağa çağırıb ondan pul istəməmişəm".*

Salyan Rayon Təhsil Şöbəsinin müdiri Əbülfəz Bədəlov isə deyir ki, müəllimlər onlardan pul yığılmasını desə də, o, rayon təhsil şöbəsinin müdiri olaraq bu barədə heç bir məktəbə göstəriş verməyib.

**"MƏNDƏN PUL İSTƏNİLMƏSİ FAKTDIR"**

Amma Pambıqkənd orta məktəbin müəllimi Firudin Əsgərov deyir ki, kimin özünü necə müdafiə etməsindən asılı olmayaraq məktəb direktoru ondan pul istəyib və faktdır:

*"Mən uzun müddətdir Yeni Azərbaycan Partiyasının üzvüyəm. Bu dövlətə böyük inamım var. Mənə nə gəlib ki, yalandan direktorun məndən pul istədiyini deyəm, məndən həqiqətən də pul istənilib".*

**"BU DA FAKT!"**

Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov hesab edir ki, orta məktəb müəlliminin açıq şəkildə mətbuatda çıxışı rəsmi araşdırma aparılması üçün əsasdır. Onun sözlərinə görə, indiyə qədər şikayətlərin anonim olduğunu deyən Təhsil Nazirliyi bu məsələni dərhal araşdırmalıdır.

***Maarif Çingizoğlu***

AzadliqRadiosu.az-da "İqtisadiyyat" bölümü:



# Mübarəkin heykəli Xırdalandan götürüldü



Heykəlin əvvəlki görüntüsü

**Misirin sabiq prezidenti Hüsnü Mübarəkin Xırdalan şəhərindəki heykəli iyunun 7-si axşam götürülüb. Heykəlin yerində Misirin simvollarından olan xəttat heykəli qoyulub. Bu barədə AzadlıqRadiosuna Abşeron Rayon İcra Hakimiyyətinin Xırdalan şəhəri üzrə icra nümayəndəliyinin müavini Zakir Həsənov məlumat verib. Xırdalan şəhərində yerləşən 9 saylı orta məktəb isə bundan sonra H.Mübarəkin həyat yoldaşı Suzan Mübarəkin adını daşımayacaq, Misir məktəbi adlanacaq.**

AzadlıqRadiosunun "İşdən sonra" proqramında Yazar Toğrul Cuvarlı və jurnalist Zamin Hacı devrilən heykəllərin və onların sahiblərinin tarixçəsindən danışırlar.

Zamin Hacı:

- «Bu, Azərbaycan hökumətinin növbəti bir biabırçılığının simvoludur. Dünyada Mübarəkin heykəli yalnız Azərbaycanda idi. Hətta deyəsən, heç Misirdə də onun heykəli yox idi. Bunlar axtarırlar, özlərinə bənzər kim varsa, onlara yaxınlaşırlar. Təbii ki, Mübarəkin heykəlinin burda qoyulmasında bu hakimiyyətin Heydər Əliyev mifini ixrac etmək siyasətinin təsiri var idi. Heydər Əliyevin heykəlini Misirdə qoyduranda, bunlar da burda Hüsnü Mübarəkin heykəlini qoymuşdular. Bunun da axırı bu cür biabırçı şəkildə yekunlaşmalı idi. Orda neçə ay idi ki, Mübarəki yıxmışdılar, ancaq burda heykəli qalırdı. Yəqin ki, o xəttatı düzəltməyə gedib bu vaxt. Həm də bəlkə də qaytardılar deyə, ümid də var imiş. Heykəl qoymaq Azərbaycan hakimiyyətinin mahiyyətinə uyğun idi.

Heydər Əliyevin heykəllərinin darıxmaması üçün yəqin ki, respublikada Hüsnü Mübarək kimilərin heykəlləri olmalı idi. Ancaq mübarəklər yıxılır. Tarixdə belə yamaq heykəllər qalmır...».

Toğrul Cuvarlı:

- «Abidələr belə şeydir ki, hətta səhvlər



Toğrul Cuvarlı

də qalmalıdır abidələrdə. Keçmiş hakimlərin abidələri var idi ki, onları tezliklə götürdülər aradan. Amma qalmalıdır. Bu, tarixdir. O cümlədən səhvlər də qalanda, daha maraqlı olur. İndi bir anlıq təsəvvür edək ki, o heykəl qalır. 10 ildən sonra özümüzə sual verərdik: Görəsən, nə qəribə durum imiş ki, ölkədə belə bir yad, heç nəyə dəxli olmayan adamın heykəli hələ də durub. Bunun da qəribə, mənəvi nəticələri var...».

# Məhkəmənin həyətində Barışıq Skamyası




Barışıq Skamyası

*Bakı Apelyasiya Məhkəməsinin həyətində Barışıq Skamyası qoyulub. Vəkil Anar Qasımov bunu yaxşı ənənə hesab edir: «Bir mülki işlə bağlı proses 1 il davam edə bilər, amma məhkəməyə gələnlər həmin Barış Skamyasında oturub məsələni bir neçə dəqiqəyə həll edə bilərlər. Misal üçün, boşanma işi ilə bağlı məhkəməyə üz tutan iki tərəf həmin skamyanı görüb bir anda fikirlərini dəyişə bilərlər».*

Vəkil deyir ki, əslində bu, məhkəmə sistemində hər hansı bir atribut, rəmz olmasa da, məhkəməyə gələnlərə müsbət mənada psixoloji təsir edir.

***Maarif Çingizoğlu***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**




# ATƏT və DİN polislə bağlı strategiya üzərində işləyir

««Cəmiyyət dəstəkli polis» layihəsinin icrası nəticəsində polislə ictimaiyyət arasındakı ünsiyyətdə nəzərəçarpacaq inkişaf müşahidə edilir. Bu da öz növbəsində daha yaxşı əməkdaşlıq və qarşılıqlı etimadın yaranması ilə nəticələnir». Bunu ATƏT-in Bakı Ofisinin rəhbəri Əli Bilge Cankorel «Cəmiyyət dəstəkli polis» layihəsinə dair keçirilən beynəlxalq konfransda çıxışı zamanı deyib. ATƏT rəsmisi bildirib ki, təşkilat polisdə qadınların sayının artırılması, həmçinin məişət zorakılığı və insan alveri kimi pozuntulara polisin daha səmərəli müdaxiləsini təkmilləşdirmək üçün strategiya üzərində çalışır. Bu fəaliyyət Azərbaycan Daxili İşlər Nazirliyi ilə birgə aparılır.

# Vidadi İsgəndərliyə qarşı yeni ittiham



Vidadi İsgəndərli

Həbsdə olan hüquq müdafiəçisi, İctimai Palatanın üzvü Vidadi İsgəndərliyə qarşı yeni ittiham irəli sürülüb. Bu barədə AzadlıqRadiosuna onun vəkili Xalid Bağırov məlumat verib. Vəkilin deməsinə görə, irəli sürülən yeni ittiham Cinayət Məcəlləsinin 132-ci (döymə) maddəsidir. Bir nəfər Vidadi İsgəndərlinin üzünə duraraq ötən ilin noyabrında keçirilən parlament seçkiləri zamanı hüquq müdafiəçisinin onu döydüyünü iddia edib. Vəkil deyir ki, əslində Vidadi İsgəndərli heç kimi döyməyib.

## Lətifəsayağı: Korrupsiya ilə rüşvətin fərqi

Təzə işə başlayan məmur müdirindən soruşur:

- Müəllim, bir şeyi soruşmaq istəyirdim...
- De, görüm.
- Korrupsiya ilə rüşvətin fərqi nədir?
- Rüşvət odur ki, bir şeyə görə pulu aldın, gərək onu edəsən. Korrupsiya isə odur ki, pulu aldın, işi görməsən də olar.

# Müxalifətin aksiya keçirməyə gücü varmı?


2 aprel aksiyası

**İctimai Palata iyunun 19-da növbəti aksiya keçirməyə qərar verib. Amma belə fikirlər var ki, müxalifət növbəti aksiya ilə bağlı qərar verməkdə tələsib. Bu fikri müdafiə edənlər hesab edirlər ki, fəalların bəzilərinin həbsdə olduğu bir vaxtda aksiyaya gələnlərin sayı xeyli az ola bilər. Müxalifətin bundan əvvəlki aksiyalarından birinə görə 10 günlük həbsdə yatan Müsavat başqanının müavini Tofiq Yaqublu repressiyaların növbəti mitinqlərə təsir edəcəyi ilə bağlı deyilənlərlə razılaşır. Amma deyir ki, haqsız yerə həbsdə olanların azadlığa buraxılmasını istəyənlər daha çoxdur və onlar növbəti aksiyaların daha izdihamlı keçirilməsində maraqlıdırlar.**

**«DÖYÜLƏNLƏR DƏ OLUB, TUTULANLAR DA»**

*«İndiyə qədərki, aksiyalarımızda döyülənlər də olub, tutulanlar da olub, amma sonrakı aksiyalarda azalma baş verməyib. Ümid edirəm ki, bu dəfə də belə olacaq».*

Barəsində cinayət işi açılan və polis nəzarətində olan AXCP sədrinin müavini Fuad Qəhrəmanlı da növbəti aksiyaya daha çox adamın gələcəyini düşünür. Onun sözlərinə görə, əslində mübarizədə prinsipiallığın və davamlılığın olmaması mənfi nəticələrə səbəb ola bilər.

*"Meriya razılıq verməsə və ya ucqar bir yerdə meydan təklif etsə, müxalifət aksiyanı keçirəcəkmi?"* sualına gəldikdə Müsavat başqanının müavini Tofiq Yaqublu deyir ki, bu barədə son qərarı İctimai Palata verəcək.

**«BU, ÇOX SÖNÜK ALINACAQ»**

Siyasi şərhçi Azər Rəşidoğlu müxalifətin belə tezliklə aksiyaya qərar verməsini məqsədəuyğun saymır. Onun fikrincə, bu, müxalifətin qalan elektoratın da zəifləməsinə səbəb ola bilər:

*«Meriya şəhərin mərkəzində mitinqə icazə verməyəcək. Müxalifət aksiya keçirməyə cəhd eləsə, bu, çox sönük alınacaq».*

Bəzi siyasi təhlilçilər hesab edirlər ki, Azərbaycandakı diplomatik korpus nümayəndələrinin İctimai Palata üzvləri ilə ikinci dəfə görüşməsi müxalifətin yenidən fəallaşmaq istəyi ilə bağlıdır. Yeri gəlmişkən, iyunun 10-da Azərbaycanda fəaliyyət göstərən Qərb ölkələrinin səfirlikləri ilə İctimai Palatanın rəhbərlərinin ikinci görüşü olub.

***Maarif Çingizoğlu***

# Yaxın həftələrdə iqtidar-müxalifət dialoqu ola bilər

*«ATƏT olaraq bizim hakimiyyətlə müxalifət arasında dialoq təşkil etməklə bağlı səylərimiz hər zaman davam edir».* Bunu iyunun 9-da ATƏT-in Bakı Ofisinin rəhbəri Əli Bilgə Cankorel jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hakimiyyət və müxalifət nümayəndələrinin iştirak edəcəyi konfransın təşkili gündəmdəki məsələlərdən biridir. Cənab Cankorel qarşıdakı həftələrdə bu təşəbbüsün baş tutacağına ümid etdiyini bildirib. İndiyə qədər müxalifətlə iqtidar partiyaları arasında bir neçə dialoq təşkil olunub. 2010-cu ilin dekabrında planlaşdırılan növbəti dialoq isə baş tutmayıb.

***Durna Səfərli***


Ə. B. Cankorel

# ABŞ səfiri: «Xəzərin mühafizəsində Azərbaycana köməyə hazırıq»


Metyu Brayza

**«Azərbaycan artıq bilir ki, öz milli resurslarını necə qorumalıdır. Lakin hər zaman gözlənilmədən hansısa bir problem yarana bilər. Bizim bu sahədə təcrübəmiz var və təcrübəmizi Azərbaycanla bölüşmək istəyirik». Bunu iyunun 11-də jurnalistlərə açıqlamasında ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza deyib. Səfir qeyd edib ki, ABŞ Azərbaycanla təhlükəsizlik sahəsində əməkdaşlığın yeni mərhələsinə başlayır: «Amerika Azərbaycana Xəzərdə yerləşən enerji infrastrukturunu ən yaxşı formada qorumaq üçün düşünməkdə kömək edir».**

*«İran və Rusiya «Transxəzər» qaz kəmərinin çəkilişinin əleyhinədir. Bu ölkələrdən təhlükələr olarsa, Amerika Azərbaycana hansı köməyi göstərə bilər»* sualına cavabında Brayza deyib ki, bu, bir qədər hipotetik sualdır: *«Bu həftə Bakıda səfərdə olan ABŞ Dövlət katibinin Avrasiyada enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar deyib ki, Azərbaycan və Türkmənistan müstəqil, suveren ölkələrdir. Biz onların suverenliyinə və müstəqilliyinə çox böyük hörmətlə yanaşırıq. Bu ölkələr öz enerji infrastrukturunu necə qorumaq və enerji resurslarının hansı istiqamətdə nəqli barədə özləri qərar verməlidir».*

***Sevinc Hüseynzadə***

# Thomas de Waal: "Ortada 3 səhifə, 14 bənddən ibarət bir sənəd var..."


Thomas de Waal

**Amerikadakı Sülh Naminə Kornegi Fondunun mütəxəssisi, "Qara bağ" kitabının müəllifi Thomas de Waal-ın Azadlıq Radiosuna müsahibəsi.**

*- Sizcə, indi Azərbaycan və Ermənistan Qarabağ münaqişəsinin həllinə nə dərəcədə yaxındırlar?*

- Azərbaycan da konstruktiv mövqe tutub, Sarkisyan-Ter-Petrosyan anlaşmasına görə Ermənistan da özünə inamlı görünür, Rusiya prezidenti Medvedev də münaqişənin həllilə şəxsən məşğul olmağa başlayıb. Yəni indi elə bir məqama çatmışıq ki, prezidentlərin blef etdikləri, sonu görünməyən bir prosesin davam etməsinə üstünlük verdikləri, yoxsa doğrudan da münaqişənin həllində maraqlı olduqları aydınlaşmalıdır. Bu, hələ aydın deyil. Amma belə bir həqiqət anı xeyli vaxt idi görmürdük.

*- Ortada nə sənəd var? Bu barədə nə dərəcədə məlumatlısınız?*

- Sənədin ümumi prinsipləri haqda məlumatlar gizli deyil. Bu, 3 səhifə, 14 bənddən ibarət bir çərçivə sənədidir. Orada münaqişənin həllində 6 əsas prinsip əksini tapıb. Bunlar Dağlıq Qarabağ ətrafındakı ərazilərdən qoşunların çıxarılması, məcburi köçkünlərin öz yurdlarına qayıtması, Dağlıq Qarabağa müvəqqəti statusun verilməsi, beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi, Ermənistana Dağlıq Qarabağla əlaqə üçün dəhliz verilməsi və hüquqi nəticəsi olan səsvermənin keçirilməsi. Bunlar haqda çoxdan bilirik. Amma bu, tam sülh sazişi deyil, çərçivə sazişidir. Əgər imzalanarsa, ümid edirik ki, yerlərdə konkret işlər başlanacaq. Erməni qüvvələri Dağlıq Qarabağ ətrafındakı rayonlardan çıxarılacaq, Dağlıq Qarabağa müəyyən təsdiqlənmiş status veriləcək.

*- İndi danışıqlar prosesində baş verənləri Rusiyanın həmin prosesi "ələ keçirməsi" kimi anlamaq olarmı?*

- Məncə, Rusiya sülh danışıqlarında bir vasitəçi kimi liderlik edir. Amma Fransa və Amerikanın tam dəstəyilə. Rusiya prezidenti Medvedev özü bu işdə fəallıq edir, bir hüquqşünas kimi sənədi redaktə edir, uyğun sözləri seçir. Bu, çox pozitiv məqamdır. Bu səbəbdən prezident Obama və prezident Sarkozidən də prezident Medvedev kimi prosesə belə diqqət gözləməyimiz yerinə düşərdi.

*- Sizcə, referendum məsələsi necə həll edilə bilər? Bu, çox mürəkkəb məsələyə oxşayır.*

- Məncə, bu məsələ hələ dəqiqləşməkdədir. Gərək bunun detalları ilə bağlı hər iki tərəf razılığa gəlsin. Çoxlu suallar var burda. Referendumda kim iştirak edəcək? Güman ki, bu, Dağlıq Qarabağ əhalisini əhatə edən bir referendum olacaq. Amma Dağlıq Qarabağın azərbaycanlı əhalisinin yurdlarına qayıtması kimi məsələnin necə həll ediləcəyi də aydınlaşmalıdır. Yəni belə məsələlərə aydınlıq gəlməlidir.

*- Sizcə, indi Amerika münaqişənin həlli və danışıqlarla bağlı Azərbaycan və Ermənistana nə deyir?*

- Onlara deyilən budur ki, siz razılığa gəlsəniz, biz də sizi dəstəkləyəcəyik. Məncə, indi qərar anıdır.

# Edvard Nalbandyan: «Azərbaycan razılıq versə...»


Edvard Nalbandyan

*«Əgər Azərbaycan baza prinsiplərinin son variantına razılıq versə, o zaman münaqişənin nizamlanmasında tərəqqi əldə etmək mümkündür.» Bunu Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyan iyunun 9-da Yerevanda ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT sədrinin şəxsi nümayəndəsi ilə görüşdə deyib. Ermənistan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin məlumatına görə, görüşdə həmsədrlər Bakı və Xankəndində apardıqları danışıqların mahiyyəti barədə XİN başçısını məlumatlandırıblar.*

Vasitəçilər prezidentlərin Kazan görüşündə münaqişənin nizamlanmasının baza prinsipləri məsələsində irəliləyiş əldə olunacağına ümidvar olduqlarını deyiblər. Edvard Nalbandyan bildirib ki, Ermənistan həmsədrlərin təqdim etdiyi baza prinsiplərinin son variantına öz dəqiq cavabını verib və Azərbaycan razılıq versə, o zaman tərəqqi əldə olunması mümkündür.

# A.Əzimov Kazan görüşündən ciddi nəticələr gözləmir


Araz Əzimov

***Azərbaycanın Xartici İşlər nazirinin müavini Araz Əzimov "Reuters" agentliyinə müsahibəsində deyib ki, Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin bu ayın sonuna nəzərdə tutulan Kazan görüşündə də Qarbağ münaqişəsinin həlli üçün ciddi nəticələr gözləmir: "Mən Kazan görüşünə o qədər də optimist deyiləm. Düşünmürəm ki, bu görüşdə münaqişənin həllinə dair baza prinsipləri razılaşdırılacaq".***

Amma bu müzakirələrdə vəziyyətin bir qədər aydınlaşacağını güman edir: "Biz diplomatik danışıqların imkanları tükənməyincə, müharibədə maraqlı deyilik. Amma kim deyə bilər ki, Azərbaycanın ordusu zəif olsun. Güclü orduya malik olmaq lazımdır, amma ondan istifadə etmək yaxşı deyil. Biz də bu prinsiplə hərəkət edirik", – deyə Araz Əzimov ordunun gücləndirilməsinin yeni müharibə ehtimalı yaratması barədə suala cavabında deyib.

# Təhsil Nazirliyinin əməkdaşı niyə saxlanılıb?

**Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi iyunun 6-da Təhsil Nazirliyinin əməkdaşı Orxan Kərimovu saxlayıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov əməliyyatın detalları, daha kimlərin saxlanması barədə məlumat vermir, deyir bu barədə açıqlama sonrakı günlərdə olacaq.**

Təhsil Nazirliyindən isə bildirilir ki, baş verənlər nazirliyin öz təşəbbüsündən irəli gəlir. Nazirliyin mətbuat xidmətinin rəhbəri Bayram Hüseynzadə deyir ki, söhbət tələbələrin bir ali məktəbdən digərinə köçürülməsi ilə bağlı sənədlərdən gedir. Nazirliyin digər əməkdaşlarının da bu işdə əlinin olub-olmamasına gəlincə, nazirlik rəsmisi deyir ki, bunu istintaq müəyyənləşdirəcək, amma hələ qurumun bir əməkdaşı saxlanıb.

**«ONUN ELƏ BİR SƏLAHİYYƏTİ YOXDUR»**

*«Açığı deyim, mənim heç ağlım kəsmir ki, Orxan Kərimov elə bir şey etsin. Məncə, heç mümkün də deyil, onun elə bir səlahiyyəti də yoxdur. Bu, çox ciddi məsələdir, dəqiq faktlara əsaslanmaq lazımdır».* Bunu isə Orxan Kərimovun qardaşı Paşa Kərimov deyir. O deyir ki, hələ nə qardaşı ilə görüşə bilib, nə də məsələ ilə bağlı təfərrüatlı bilgi əldə edib. Amma qardaşının hansısa dövlət sənədlərini saxtalaşdıra bilməsinə inanmır, deyir hətta istəsəydi belə buna səlahiyyəti çatmazdı.

**10 MİNLƏRLƏ İNSAN İXTİSASINI DƏYİŞİB**

XXI Əsr Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyevə görə isə, nazirlik, sadəcə, təhsil sahəsində korrupsiya ilə mübarizə apardığını göstərməyə çalışır: *« Orxan Kərimovun nazirlikdə tutduğu vəzifə 4-cü dərəcəlidir, o heç vaxt sənədin birinci nüsxəsinə qol çəkmir. Bütün köçürmələr nazirin imzası ilə baş verir. Misir Mərdanov təhsil naziri təyin ediləndən bu yana 10 minlərlə adam ixtisasını dəyişib, ali məktəblərə köçürülüb. Bu isə neçə yüz milyon vəsait edir».*



**Ekspert Etibar Əliyev**

Təhsil Nazirliyinin sözçüsü Bayram Hüseynzadə isə deyilənlərlə razılaşmır, istintaq başa çatmamış nazirliyi bu işlə bağlı nədəsə ittiham etməyi haqsız sayır.

**MTN VƏ BAŞ PROKURORLUQ MƏLUMAT YAYIB**

Baş Prokurorluğun mətbuat xidməti Milli Təhlükəsizlik Nazirliyi ilə Baş Prokurorluğun birgə keçirdiyi əməliyyatla bağlı məlumat yayıb. Məlumatda qeyd olunur ki, əməliyyat nəticəsində saxlanan şəxs - Rafiq Hüseynov özünü Təhsil Nazirliyinin əməkdaşı, Bakı Dövlət və Dövlət İqtisad universitetlərinin müəllimi kimi təqdim edərək, Azərbaycan vətəndaşı S.Yusubovaya Moskva Humanitar Universitetinin 1-ci kurs tələbəsi olması barədə rus dilində saxta arayış və tələbə bileti təqdim edib. Baş Prokurorluğun məlumatına görə, Rafiq Hüseynov bu deyilənləri etiraf edib.

Məlumatda qeyd olunur ki, Rafiq Hüseynovun evindən dövlət və özəl ali təhsil müəssisələrinə, kollec və orta məktəblərə aid 33 adda 63 ədəd möhür, çoxlu sayda doldurulmuş və yazılmamış halda diplomlar, hazır tələbə biletləri və s. sənədlər aşkar olunub. Rafiq Hüseynov qanunsuz əməllərindən ümumilikdə 326 min manat əldə edib.

Məlumatda cinayətin iştirakçısı olan daha iki şəxsin həbs edildiyi, digər iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirildiyi bildirilir.

***Ülkər Akifqızı***


**Videodan bir görüntü**

# Polisin vətəndaşdan pul aldığı video araşdırılır

**Oxuculardan biri AzadliqRadiosu.az saytına iyunun 6-da Bakıda bir polis əməkdaşının sürücünü yolda saxlayaraq ondan pul aldığını əks etdirən video göndərib. Oxucu onu Bakının mərkəzində - Zivər bəy Əhmədbəyov küçəsində çəkdiyini yazır.**

Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kamran Əliyev AzadlıqRadiosunun SimsizTeleqraf rubrikasına göndərilən bu videonu şərh edərkən bildirib ki, mütləq onu araşdıracaqlar: *"Görək bunlar kimdir? Əgər bizim belə əməkdaşlarımız varsa, onları vaxtında aşkar edib, barələrində tədbir görülməsində biz də maraqlıyıq. Korrupsiyaya qarşı mübarizə çərçivəsində Daxili İşlər nazirinin əmri ilə 14 nəfər vəzifəsindən azad olunub. Amma videodan hadisənin harada, necə baş verdiyi məlum olmur".*

Kamran Əliyev bildirdi ki, video ilə bağlı rəhbərliyə məruzə edilib, araşdırmalara başlanılacaq. Prezident İlham Əliyev bu il fevralın 14-də imzaladığı sərəncama görə, yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar cərimələrin yalnız bank və ya plastik kart vasitəsilə ödənilməsi təmin edilməlidir. Sərəncama görə, hökumət bir ay müddətində bu barədə təkliflərini prezidentə təqdim etməli idi.

# О проблемах победы для Алиева

**СЧАСТЬЕ ИЛИ НЕСЧАСТЬЕ**

Каждый год конкурс Eurovision проводится на родине прошлогодних победителей, а зрители Eurovision ездят вслед за конкурсом по странам, которые ранее их не интересовали. Такого рода реклама может обернуться для руководителей страны, которая проводит конкурс у себя, или благом, или несчастьем.

А как воспользуется президент Азербайджана Ильхам Алиев этой возможностью? Ему придется задуматься – каким он хочет видеть имидж своей страны, когда появится перед первой массовой аудиторией, прибывшей из Европы? Столица Баку ближе к Кабулу и Багдаду, чем городам Европейского союза, но азербайджанцы видят себя больше в рамках Европы.

…Однако эта победа пришлась на не самое удачное время. В постсоветской истории независимости этой страны происходит самое жесткое давление на права человека и свободу слова. Причем в такое время, когда внимание мировой общественности обращено на эту страну.

Всего за два дня до победы в Eurovision Европейский парламент осудил в своей резолюции «широкомасштабную атаку на свободу слова и собраний, аресты, преследования, запугивания активистов гражданского общества, профессионалов медиа и оппозиционных политиков в Азербайджане». Президент Европарламента Ежи Бузек добавил, что «Мы призываем Азербайджан выполнить свои обязательства» - страна подписала ряд европейских договоров и соглашений, а также дала обещание защищать права человека.

**С ЧЕГО НАЧАТЬ?**

Было бы великолепно, если президент Алиев начал с дела Бахтияра Гаджиева. 29-тилетний Гаджиев был кандидатом в депутаты, а ныне – ведущий борьбу за демократию активист. В настоящее время он отбывает двухлетний срок лишения свободы. Его вина, скорее всего, даже на поверхностный взгляд, заключается в том, что он намеревался через социальную сеть Facebook организовать мирную акцию протеста в Баку. Азербайджанское правительство часто бросает в тюрьмы своих критиков. Но выпускник Школы менеджмента Кеннеди Гарвардского университета Бахтияр Гаджиев обладает большей известностью, чем другие. Его арест должен порождать серьезные вопросы о намерениях руководства Азербайджана.

**ПРИВЕРЖЕННОСТЬ ЕВРОПЕЙСКИМ ЦЕННОСТЯМ**

Тысячи журналистов, которые приедут на Конкурс песни Eurovision-2012 в Баку должны знать, что правительство– хозяин этого конкурса, как правило, арестовывает журналистов. Средства массовой информации, которые будут транслировать это шоу на примерно 50 стран, должны помнить, что они ведут трансляцию из государства, которое ограничивает доступ своего народа к масс-медиа или контролирует это.



Празднование победы на Eurovision, Баку, 15 мая 2011

Наконец, конкурс Eurovision дает шанс официальному Баку показать и доказать всему миру свою «европеизированность». Международная общественность должна четко разъяснить Баку, что для утверждения своей приверженности европейским ценностям недостаточно только построить помпезные стадионы и суметь организовать яркое шоу. Для того, чтобы завоевать место в Европе, Азербайджан должен показать, что страна, впервые построившая мусульманскую демократию, может оставаться преданной основным европейским ценностям, таким, как демократия, свобода слова, а самое главное, верховенство прав человека.

Автор статьи - Дэниэль Лансберг-Родригес работает над проектом сравнения конституций в Юридической школе Чикагского университета.

# О чем беседовал принц Норвегии с Фатуллаевым?



Крон-принц Норвегии Хоокон (слева) и Эйнулла Фатуллаев, Баку, 6 июня 2011

*Вечером 6 июня крон-принц Норвегии Хоокон, во время приема в его честь в Государственной филармонии в Баку, провел беседу с недавним заключенным редактором газеты "Реальный Азербайджан" Эйнуллой Фатуллаевым, сообщает Turan. "Мы говорили около 15 минут, я поблагодарил за деятельность Стейнара Гила в качестве посла в Баку, а также поддержку правительства Норвегии и МИД этой страны. Отдельно я выразил благодарность норвежским НПО и королевской семье Норвегии за поддержку семье убитого журналиста Эльмара Гусейнова", - сообщил Эйнулла Фатуллаев после встречи с принцем:*

"Крон-принц спросил что дала мне тюрьма, и я ответил, что это был ценный жизненный опыт, который понадобится мне в будущей жизни. Принц спросил также намерен ли продолжить работу журналиста, на что я ответил позитивно. Большое число граждан Азербайджана обращается ко мне с этим вопросом и, я считаю это важным доводом в пользу возобновления работы.Я попросил принца поднять на встрече с Ильхамом Алиевым вопрос об освобождении блогеров Бахтияра Гаджиева и Джаббара Савалана. Принц обещал это сделать".

# Xarici diplomatlar Azərbaycan müxalifəti ilə yenə qapalı görüş keçirdi

**İyunun 10-da İctimai Palatada təmsil olunan partiyaların, eləcə də bitərəf qüvvələrin təmsilçiləri ilə xarici diplomatik missiyaların nümayəndələri arasında görüş keçirilib. Görüş təxminən saat yarım davam edib. Görüşdə Böyük Britaniya, Almaniya, Türkiyə, Fransa, Polşa, ABŞ səfirlikləri və Avropa Birliyinin nümayəndələri, ATƏT və Avropa Şurasının Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri iştirak edib. Görüş qapalı keçirilib.**




İsa Qəmbər

**<u>İSA QƏMBƏR:</u> «YAP-çıların NARAHATLIĞI ƏSASLIDIR»**

*Diplomatik korpus nümayəndələrinin İctimai Palata üzvləri ilə eyni formatlı birinci görüş bu ilin aprelində keçirilib. Müsavat başqanı İsa Qəmbər bunu Azərbaycanın Avropaya inteqrasiyasına və ölkədə demokratiyanın inkişafına xidmət edən bir görüş adlandırıb. Onun sözlərinə görə, müxalifətin hazırladığı «Avtoritarizmdən demokratiyaya keçidin yumşaq yol xəritəsi» adlı sənəd müzakirə edilib:* «Bundan başqa siyasi və vicdan məhbusları ilə bağlı çox geniş söhbət etdik. Azadlıqların genişləndirilməsi, vətəndaş cəmiyyətinin problemləri, siyasi mənsubiyyətinə görə təhsil müəssisələrindən xaric edilən gənclərin Avropa universitetlərində təhsil alması və s. məsələləri müzakirə etdik».

*İsa Qəmbər görüşlə bağlı hakim partiyanın narahatlığının haqlı olduğunu deyib:* «Onlar bilirlər ki, niyə narahat olurlar. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı ölkədə dəyişiklik istəyir və buna nail olacaq. Ona görə də YAP-çıların narahatlığı çox əsaslıdır».

ATƏT-in Bakı Ofisinin rəhbəri Bilge Cankorel hakim partiya təmsilçilərinin görüşlə bağlı tənqidlərinə cavab vermək istəmədi, qısaca onu bildirdi ki, bu, onların öz fikirləridir.

**<u>M.BRAYZA:</u> «GÖRÜŞMƏK DİPLOMATLARIN VƏZİFƏSİDİR»**

*ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza AzadlıqRadiosuna deyib ki, müxtəlif siyasi qrupa mənsub insanlarla görüşlərin keçirilməsi diplomatların vəzifəsidir:* «Diplomatların vəzifəsidir ki, istənilən siyasi qrupa mənsub olan insanlarla görüşsünlər. Əgər biz demokratiyadan danışırıqsa siyasətlə məşğul olan hər kəslə görüşməli, onları dinləməliyik. Amma dinləməyimiz o demək deyil ki, biz onlarla razılaşırıq».

**<u>MÜBARİZ QURBANLI:</u>«SƏFİRLƏR ÖZLƏRİNİ GÜLÜNC VƏZİYYƏTƏ SALIRLAR»**

*Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, deputat Mübariz Qurbanlı isə deyir ki, diplomatların İctimai Palata üzvləri ilə görüşü onlara, sadəcə, gülməli görünür:* «Ona görə ki, heç bir ictimai dayağı və rəsmi qeydiyyatı olmayan, sadəcə, adı olan bir qurumla böyük-böyük dövlətlərin səfirləri görüşür və bu görüşü də ictimailəşdirib, onun ətrafında hay-küy yaratmaq istəyirlər. Mənə elə gəlir imici olan və dövlətinin siyasi imicini qoruyan səfir həmin İctimai Palatada görüşməzdi».

YAP icra katibinin müavini deyir ki, arxasında heç bir ictimai dayağın olmadığı bir qurumun nümayəndələri ilə görüşməklə səfirlər özlərini gülünc vəziyyətə salmış olurlar.

*Müxalifətlə-iqtidar arasında yaxın vaxtlarda dialoq keçiriləcəyi ilə bağlı ATƏT-in Bakı Ofisinin rəhbəri Bilge Cankorelin fikirlərini AzadlıqRadiosuna şərh edərkən Mübariz Qurbalı belə deyib:* «Mən bilmirəm cənab Cankorel nəyi nəzərdə tutub, biz hara dəvət olunuruqsa ora da gedirik. Əgər dialoq adı altında bir məsələ müzakirə eləmək istəyirlərsə biz həmin müzakirələrə qatıla bilərik. Amma mən bütövlükdə dialoq termininin Azərbaycanda belə istismar olunmasının əleyhinəyəm. Çünki Azərbaycan siyasi proseslərin sabit şəkildə inkişaf etdiyi, vətəndaş sülhü, vətəndaş birliyi olan ölkədir. Bu gün dialoq sözünü Fransa, Amerika və Böyük Britaniyaya aid eləmədiyimiz kimi bizə niyə aid edirlər. Dialoq Somalidə, Anqolada və digər qarşıdurma olan ölkələrdə olmalıdır, Azərbaycanda yox».



Mübariz Qurbanlı

**«ÇOX AZLIQDA OLAN DAİRƏ DİALOQ- DİALOQ DEYİR»**

*Mübariz Qurbanlının deməsinə görə, dialoq məsələsini həmişə Azərbaycanda azlıqda olan radikal müxalifət partiyaları qaldırılar:* «Yığışdıq söhbətə başlayaq, nədən danışacağıq? Cəmiyyətdə qanun işləyir, hər şey qaydasındadır. Çox azlıqda olan bir dairə dialoq-dialoq deyir. Bu mövzu artıq adamı yorub. Biz deyirik dialoq nəyə deyirsiz gəlin, oturub söhbət edək, amma hansısa təşkilatın egitası altında yığışıb söhbət etmək bizə bir qədər anormal görünür. Azərbaycanda nə vəziyyətdir ki, ATƏT çərçivəsində görüş olsun, söhbət aparılsın?!»

Mübariz Qurbanlı deyir ki, bu gün parlamentdə təmsil olunan 12 partiya arasında normal dialoq mühiti var.

***Maarif Çingizoğlu,***
***Nüşabə Fətullayeva***

# ARDNŞ 235 milyon dollarlıq sifarişini niyə «Tekfen»ə verib?

## Qalibi 2 il əvvəl bilinən tender



SOCAR TOWERS

**ARDNŞ-in yeni inzibatı binasının - SOCAR TOWERS-in hündürlüyü 200 metr olacaq. Binanın 40 mərtəbəsi yerüstü, 2 mərtəbəsi isə yeraltı olmaqla, ərazisi ümumilikdə 5 hektar sahəni əhatə edəcək. Bəzən 2000, bəzən də 2200 nəfərin burada işləyə biləcəyi deyilir. Binada istifadə sahəsi 100 min kvadratmetrdir, orada 5 konfrans zalı, fitnes mərkəzi, eyni vaxtda 1243 nəfərin istifadə edə biləcəyi bir neçə yeməkxana fəaliyyət göstərəcək, yeraltı və yerüstü avtomobil dayanacaqları olacaq.**

Amma binanın başa gələcəyi xərcin miqdarı da az şey demir. Bu vəsait 235 milyon dollar, başqa sözlə, 185 milyon manatdır. Dövlət büdcəmizin az qala 2 faizini təşkil edir. 2011-ci il dövlət büdcəmizdə iri şəhərlərin xərcləri aşağıdakı kimi göstərilib (milyon manatla): Sumqayıt 60, Gəncə 54, Şəki 31, Lənkəran 30. Bu 4 iri şəhərin 1 illik xərci 175 milyon manatdır, yəni bizim haqqında danışdığımız binanın xərcindən 10 milyon manat az. Bu binanın xərci büdcəmizdə ali təhsilə ayrılan xərclərdən təxminən 2 dəfə çoxdur...

- Bir bina üçün bu məbləğ çox deyilmi?
- Bir şirkət üçün bu qədər xərcə ofis tikmək israfçılıq deyil ki?
- Bu pula qeyri-neft sektorunda iri bir müəssisə qurmaq olmazdımı?
- Layihənin qiyməti şişirdilibmi?
- Onun icrası şəffafdırmı?

### GİZLİ MƏLUMATLARLA ƏN BAHALI BİNA TİKMƏK

12 oktyabr 2010-cu ildə inşasına start verilən SOCAR TOWERS-in tikintisini Türkiyənin «Tekfen Holdinq»inə daxil olan «Tekfen İnşaat ve Tesisat A.Ş.» aparır. Rəsmi məlumata görə, «Tekfen-İnşaat» həmin ilin martında elan olunmuş tenderlə - açıq müsabiqə yolu ilə 8 nüfuzlu şirkət arasından seçilib. Tenderin şəffaf və qanuni keçirilməsini müəyyən etmək, həmçinin binanın xərclərinin şişirdilib - şişirdilməməsi barədə düzgün qənaətə gəlmək üçün apardığımız araşdırmalar zamanı ARDNŞ-ə verilən bütün sorğular cavabsız qaldı.

### ŞOK YARADAN «TEKFEN» GİZLİNİNİN AÇILMASI

Azərbaycan qanunlarına görə, böyük məbləğdə dövlət vəsaitinin xərcləndiyi sifarişləri yerinə yetirən şirkətlər yalnız tender vasitəsilə seçilməlidir. Üstəlik, tenderi elan edən təşkilatla onların arasında hər hansı ortaqlıq, ümumi maraq, asılılıq ola bilməz. «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsi həmin şirkətlərin tenderlərdə iştirakını maraqların toqquşması kimi qiymətləndirərək yolverilməz sayır.

Bəs biz nəyi müəyyən etdik? Məlum oldu ki, hələ 2008-ci ildə ARDNŞ və azərbaycanlı iş adamı Mübariz Mənsimovun sahibi olduğu «Palmali Holdinq» bu şirkətin 50 faizini satın almaq barədə «Tekfen Holdinq»lə razılaşma imzalayıblar. Türkiyə mətbuatı bu xəbəri «Azeri petrol devi Tekfen'in yarısını satın aldı», «Tekfen İnşaat'a Azeri ortak» bu kimi başlıqlarla yayıb. Bu haqda sənədlər isə həmin dövrdə Bakıda imzalanıb.

Düzdür, 2009-cu ilin əvvəlində «Tekfen




Vüqar Bayramov

Holdinq» və ARDNŞ qlobal maliyyə böhranı ilə əlaqədar bu ortaqlığın həmin ilin sentyabr ayına qədər ertələndiyini bəyan etmişdi. Lakin söhbət yalnız ertələnməkdən gedirdi, tərəflər ona yenidən baxılacağını dəfələrlə bəyan ediblər.

Tutaq ki, ARDNŞ «Tekfen İnşaat»da doğrudan da pay sahibi deyil. Bununla belə, onlar arasında ortaqlığı sübut edən başqa bir faktı heç kim inkar etmir. Bu ortaqlıq «Azfen» şirkətidir. Bu şirkətin 60 faizi ARDNŞ-in, 40 faizi «Tekfen»indir.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov sözügedən tender və layihə barədə məlumatların ARDNŞ tərəfindən gizlədilməsini daha çox onun «Tekfen İnşaat»la şərik olması ilə bağlayır: Həmin şirkətin ARDNŞ-in tenderində iştirak etməsi «maraqların münaqişəsi» baxımdan qadağandır.

Qanunlar hər cür otaqlığı tenderdə iştirak etməyə zidd sayır. İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin həmsədri Rövşən Ağayev: «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə görə, ARDNŞ özünə hər hansı bağlılığı olan şirkətə bu qədər böyük məbləğdə sifarişi verə bilməz. Qanun ciddi şəkildə pozulub və böyük məbləğdə vəsaitin şəffaf xərcləndiyinə zəmanət yoxdur. Bu, çox nadir və ağır pozuntulardandır».

Ekspertlər deyir ki, SOCAR TOWERS-in tikintisi qanunsuz yolla aparılır və hətta tenderdə iştirak edən digər 7 şirkət də məhkəmə yolu ilə bu tikintini dayandırtdıra bilərlər. Normalda səlahiyyətli dövlət qurumları da bu qanunsuzluğu araşdırmalıdır.

### NƏTİCƏSİ 2 İL ÖNCƏ BİLİNƏN TENDER...

Sözügedən binanın təməlqoyma törənində Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev söyləmişdi: «2010-cu ilin martında Dövlət Neft Şirkətinin yeni inzibati binasının tikintisi üzrə xidmətlərin



Rövşən Ağayev

göstərilməsi üçün açıq müsabiqə elan edilmişdir. Dünyanın 8 nüfuzlu tikinti şirkətinin iştirak etdiyi tenderdə Türkiyənin «Tekfen İnşaat» şirkəti qalib gəlmişdir».

*(davamı səh.10-da)*

# Qalibi 2 il əvvəl bilinən 235 milyonluq tender

*(əvvəli səh. 9-da)*

Amma... hələ 2008-ci ildə Türkiyə mətbuatı yazırdı ki, ARDNŞ-in yeni inzibati binasını «Tekfen İnşaat» tikəcək: «Tekfen Holding A.Ş, bağlı ortaklıklarından "Tekfen İnşaat ve Tesisat A.Ş ve Azerbaycan devlet petrol şirketi Socar arasında Socar'ın yeni yönetim binasının yapımı hususunda Bakü'de bir protokol imzalandığını duyurdu. 09 Ekim 2008.»

...Yəni 2010-cu ildə keçirilən bir tenderin qalibi 2008-ci ildən bəlli olub.

**235 MİLYON ÇOXDUR, YOXSA AZ? XƏRCLƏR ŞİŞİRDİLİBMİ?**

7 may 2010-cu ildə prezident İlham Əliyev Kür daşqınlarına həsr olunmuş müşavirədə Bakının köçürülən ərazilərində əhalinin ödənilən pullardan narazılığını qınayaraq, Bakıda ən bahalı binalarda 1 kvadratmetrin qiymətinin 1500-1600 manat olduğunu demişdi.

İqtisadçı Rövşən Ağayev də deyir ki, İlham Əliyevin dediyi qiymət tikililərin bazar dəyəri ilə bağlıdır: « Bazar dəyəri isə bəzən maya dəyərindən 4-5 dəfə də çox ola bilər. Deməli, həmin qiymətə satılan binalar bu məbləğdən xeyli aşağı qiymətə başa gəlir. Azərbaycanda işçi qüvvəsinin hazırkı dəyərini, tikinti materiallarının qiymətini nəzər alsaq, dizaynından asılı olmayaraq heç bir binada bir kvadratmetr tikintinin maya dəyərinin 1500 dollardan yüksək olacağı inandırıcı görünmür. Hazırda çoxmərtəbəli yaşayış evlərində hər kvadratmetr tikintinin maya dəyəri tam təmir nəzərə alınmaqla 500 manatdan çox deyil. Qoy inzibati binalarda xərclər bundan 2.5-3 dəfə çox olsun, bundan artığı mümkün deyil. Bunu nəzərə alsaq, deməli, ARDNŞ-in 150 milyon dollara 100 000 kvadratmetrlik bina tikməsi tam realdır».

Bəs onda SOCAR-ın binası niyə prezidentin dediyi satış qiymətindən də xeyli baha başa gəlir? Məsələn, 1 kvadratmetir 1880 manata!

**QAZAXISTANIN ASIL TACI (EMERALD TOWERS) İLƏ MÜQAYİSƏ**

Astanadakı «Asıl Tac» - «Emerald Towers» 350 milyon dollara başa gəlib, 2010-cu ildə açılıb. 37, 43 və 54 mərtəbəli 3 bina-əkizdən ibarət olan bu kompleksin ən hündürü 210 metr olsa da, 280 min kv.m. sahəyə sahibdir və 15 min adamın işləməsinə imkan verir. SOCAR TOWERS-in 2200 nəfərlik binasını onunla necə


"Emerald Towers"

müqayisə etmək olar? 15 min nəfər işləyəcək bu binada.

Üstəlik, «Asıl Tac»ın 1 kv.metri 1250 dollara başa gəlib 350.000.000 /280.000=1250 $), SOCAR TOWERS-in 1 kv. metri isə 2300 dollara. Nədən?

**BƏHREYNDƏKİ ÜMUMDÜNYA TİCARƏT MƏRKƏZİNİN ƏKİZ GÖYDƏLƏNLƏRİ İLƏ FƏRQ**

BÜTM 240 metr hündürlüyündədir. 50 mərtəbədir. Ondan 34-ü ofislərdir, qalanları isə ali dərəcəli xidmət sahəsidir – restoranlar, konfrans zalları və s. Burada 5 mərtəbəli maşın parkinqi sahəsi də var, 1700 avtomobil tutur.

Bu əkizlər neçəyə başa gəlib? Layihələşdirmə də daxil olmaqla 150 milyon dollara. Bina 2008-də tikilib. ARDNŞ-in 230 milyonluq əkizlərindən 80 milyon ucuz. Amma bir fərq də var. 150 milyon dollara binanın külək generatorları ilə


Bəhreyndəki Ümumdünya Ticarət Mərkəzi

təmin edilməsi də daxildir. Külək generatorları isə binanın xərclərinin tezliklə ödənilməsinə imkan verəcək. Üstəlik, bu əkizlər dünyanın ekoloji üstün 10 binası siyahısına daxildir. Bina arxitektura sahəsində məşhur mükafatlara layiq görülüb.

**«SIRS TAUER»**

Çikaqo nəhəngi «Sirs Tauer»i tanımayan olmaz. O, bir əfsanədir. Cəmi 50 min kvadratmetr sahədə tikilən (bizim əkizlər 12 min kvadrat tutur) binanın hündürlüyü 500 metri aşır. Zamanında 150 milyon dollara başa gələn bu nəhəng indi 950 milyon dollara başa gələrdi; bu arada bina satıldığı üçün, həmin hesablamanı ABŞ-dakı nüfuzlu qiymətləndirmə şirkətlərindən biri aparıb. Bəli, Sirs Tauer ARDNŞ-in yeni ofisindən 4 dəfə baha başa gələrdi. Amma bu bina 2000 nəfərin işləməsinə bəs edən bizim SOCAR TOWERS-dən fərqli olaraq 350 min adamın işləməsinə bəs edir. Görün fərq nədədir. Maraq üçün araşdırdıq və bəlli oldu ki, bu binada yerləşən şirkətlərdən 50-nin işçi sayı 2 mini aşır. İldə 1 milyon turist qəbul edən bina xərclərinin bir hissəsini icarəsiz çıxarır.

**2000 ƏLAHİDDƏ NƏFƏRİN İŞ YERİ ÜÇÜN?**

ARDNŞ-in ümumilikdə 70 mindən bir az çox işçisi var, Rusiyanın dövlət neft nəhəngi «Rosneft»in isə 150 mindən çox işçisi var, dövriyyəsi, hasilatı isə ARDNŞ-lə müqayisədə həddən artıq böyükdür. Amma «Rostneft» xeyli əvvəl 1499 nəfərlik mərkəzi aparatından əməkdaşların 10 faizini ixtisar edib. Üstəlik də, həmin aparat ARDNŞ-in indiki ofisi kimi əsrlik ömrü olan 4 mərtəbəli gözəl bir binada yerləşir. Elə ARDNŞ-in də indiki binası olduqca gözəldir...

Azad İqtisadiyyata Yardım Mərkəzinin sədri Zöhrab İsmayılın şərhi isə daha böyük təəccüb yarada bilər: «Məsələ bundadır ki, həmin 2000 nəfər işsiz deyil, onlar bu gün SOCAR-ın işçiləridir və onun müxtəlif binalarında işləyirlər. Həm də kifayət qədər yaxşı binalarda. Amma deyəsən hamı unudur ki, SOCAR-ın ildən-ilə istehsalı azalır. Ən dəhşətlisi odur ki, buna rəğmən şirkətin işçilərinin sayı artır».

***Şahvələd Çobanoğlu***

**P.S.** Bu araşdırma «SCOOP-Caucasus» layihəsi çərçivəsində həyata keçirilib. Araşdırmanın tam mətnini AzadliqRadiosu.az saytından oxumaq olar.

# Universitetlərdə təhsil haqlarının məxfi artımı...

**Təhsil üzrə ekspertlər Etibar Əliyev və Əlövsət Osmanlı bu barədə fikirlərini "İşdən sonra" verilişində bölüşüblər.**

Etibar Əliyev:

- «Azərbaycanda artıq təhsilin bütün pillələri ödənişli təhsilə keçir. Orta məktəblərdə artıq repetitor təhsili üçün valideynlər qeyri-rəsmi ödənişlər edirlər. Bu, xeyli miqdarda vəsait edir. Orta ixtisas məktəblərinin, texnikum və kolleclərin təxminən 70 faizi ödənişlidir. Ali məktəblərdə isə 30 faiz dövlət hesabına təhsil alır, 70 faiz Azərbaycan vətəndaşı isə ödənişli... Azərbaycanda indiki vəziyyətdə ali məktəblərdə təhsil haqqının 900 manatdan 4500 manata qədər müəyyənləşməsi çox yüksəkdir. Azərbaycanda təhsilin keyfiyyəti yüksək deyil. Təhsil verilən həmin pula dəymir. Çünki Azərbaycan ali məktəblərinin heç biri akkreditasiyadan keçməyib. Yəni Azərbaycan ali məktəblərində təhsilin keyfiyyəti obyektiv olaraq qiymətləndirilməyib. İkincisi, heç bir ali məktəbin kampusu, yataqxanası yoxdur. Heç bir ali məktəb kənardan alimləri dəvət edə bilmir. Ali məktəblərdə müəllim-tələbə mobilliyi həyata keçirilmir.

Bundan başqa, Azərbaycanda minimum əməkhaqqı çox aşağıdır. Bu əməkhaqqı ilə təhsil haqqının bu cür artırılmasının bir adı var – insafsızlıq...».

Əlövsət Osmanlı:

- « Bizim təhsilimizdə hansı dəyişikliklər, hansı intibah baş verib ki, o qiymət bu qədər artırılır?... Bu qiymət artımının fəlsəfəsi də mənə aydın deyil. Nəyə görə bu qiymət qoyulub? Tutaq ki, hüquq fakültəsinə 615 baldan az toplayan pul ödəməlidir. Riyaziyyat fakültəsində isə 450 baldan yuxarı toplayanlar pulsuz oxuyurlar. Burda məntiq pozulur. Necə ola bilər ki, 460 bal toplayan pulsuz oxuyur, 610 bal toplayan isə pullu? Bir qayda müəyyənləşməlidir...»


Əlövsət Osmanlı

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Sürücülərin ödədiyi pul hara gedir?


Bakı-Şirvan-Bakı marşrutu üzrə 51 sürücü işləyir

**Bakı-Şirvan-Bakı marşrutunun sürücüləri deyirlər ki, mayın axırından işə çıxa bilmirlər. Səbəb isə Nəqliyyat Nazirliyi «Avtonəqliyyatservis» Departamentinin müfəttişlərinin onlardan hər ay qanunsuz pul yığmasıdır.**

**100 MANAT VERMƏYƏN SÜRÜCÜ XƏTTƏ BURAXILMIR**

Sürücü Bayram Quliyev deyir ki, iyunun 10-da «Avtonəqliyyatservis» Departamentinə fərqlənmə nişanı almaq üçün banka ödədiyi rüsumun qəbzini təqdim edib. Amma departament işçiləri ondan bu qəbzi qəbul etməyiblər ki, pulu banka yox, onlara ödəmək lazımdır. B.Quliyev deyir ki, fərqlənmə nişanı almaq üçün 46 man 80 qəpik ödəməli olduqları halda, departamentin işçiləri məcburi şəkildə bütün sürücülərdən 100 manat tələb edir. Bu tələbə əməl etməyən sürücülər isə xəttə buraxılmır:

*« Biz əvvəl fərqlənmə nişanını Şirvan şəhərindən alırdıq. Qanuni şəkildə aparıb 46 manat 80 qəpiyi banka ödəyirdik. Köhnə avtovağzaldan «Binə» Ticarət Mərkəzinə köçmüşük, həmin vaxtdan fərqlənmə nişanını burdan alırıq. Burda isə «Avtonəqliyyatservis» Departamentinin işçiləri qanunsuz olaraq 100 manat tələb edirlər. Deyirəm ki, mən banka ödəmək istəyirəm. Deyirlər ki, elə şey ola bilməz, mənə ödəməlisən».*

**ÖDƏNİLƏN PUL HARA GEDİR?**

Sürücülər iddia edirlər ki, onlardan hər ay üçün yığılan 100 manatın hara getdiyindən xəbərsizdirlər: *«Pul əldən-ələ gedir, bizim adımızdan keçirilmir. Adımıza bir kağız verirlər, ancaq adımıza heç bir yerə, heç bir vergi ödənilmir. Bizim sürücülərin hamısına vergidən məktublar gəlir. Bildirilir ki, neçə illərdir vergi ödəmirik. Ona görə də Vergilər Nazirliyi, Pensiya Fondu bizi məhkəməyə verir».*

**DEPARTAMENT FƏRQLƏNMƏ NİŞANINA MƏSULDUR**

«Avtonəqliyyatservis» Departamentinin sektor müfəttişi Vidadi Qəhrəmanov deyir ki, sürücülərin iddialarını inandırıcı saymır:

*"Nəqliyyat müfəttişi pul ala bilməz. Konkret ad desinlər, fakt araşdırılsın yerində. O qədər başqa-başqa idarə və müəssisələrin adından istifadə edənlər var ki. Nəqliyyat Departamenti vergi ödəniləndən sonra fərqlənmə nişanı verə bilər".*

*- Bəs, pulu hara ödəyirlər?*

- Dövlət büdcəsinə.

*- Hansı yolla?*

- Bank yolu ilə.

*- Sürücülər pulu banka yox, departamentin müfəttişlərinə ödədiklərini bildirirlər. Siz onlara fərqlənmə nişanını hansı ödəniş sənədinə uyğun olaraq verirsiniz?*

- Mən sizin bütün suallarınızı cavablandırdım. Başqa deyiləsi sözüm yoxdur.

**ÜÇ İLDİR DÖVLƏT AVTOMOBİL XİDMƏTİ YARADILMIR...**

Nəqliyyatçıların ÜmumAzərbaycan İctimai Birliyinin sədri Natiq Ələkbərov hesab edir ki, Azərbaycanda nəqliyyat, sərnişindaşıma sahəsində ciddi problemlər mövcuddur: *«Hər hansı şəkildə bankdan kənar pulun qəbul olunması qanunsuzdur».*

N. Ələkbərov Dövlət Avtomobil Xidməti yaradılarsa, bu sahədə problemlərin həllinə nisbətən təsir edəcəyinə inanır.

***Nüşabə Fətullayeva***

# Vaxtlı, ya vaxtsız vergi yoxlaması?


Arxiv foto

**«Audit yoxlamasına il tamam olmamış gəlirlər, 11 ayın tamamında qapını kəsdirirlər. Heç Ədliyyə Nazirliyinin də xəbəri olmur. Özləri yoxlamağa gəlirlər və şərtləri də çox sərt olur. İlkin şərtlərini yerinə yetirməyəndə çox dərin, dəqiq yoxlamalara gedirlər. Korrupsiya amili vergi sistemində hələ həll olunmayıb».**

Bakıda mebel biznesi ilə məşğul olan sahibkar Səxavət Mustafayev vergi sistemindəki özbaşınalıqdan şikayətçidir. Deyir vaxtlı-vaxtsız vergi yoxlamaları, bu sahədə rüşvət tələbi hallarının aradan qaldırılmaması sahibkarlığın inkişafına mane olan əsas faktorlardır.

Bu il fevralın 15-də prezident İlham Əliyev «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə» imzalayıb. Bu əsasnaməyə əsasən, mayın 1-dən sahibkarlıq sahələrində yoxlama aparan qurumlar hökmən Ədliyyə Nazirliyində reyestrdən qeydiyyatdan keçməlidir. Başqa sözlə, vahid məlumat reyestrinin yaradılması səlahiyyəti olmayan qurumların, şəxslərin vergi yoxlaması aparmasının qarşısını almağa yönəlib. Bundan başqa, əgər aparılan yoxlamalardan bir il ötməyibsə, onda yoxlayıcı qurumun təkrar yoxlama aparmaqla bağlı müraciəti reyestrə daxil edilmir.

### «VERGİLƏRİN MƏNİMSƏNİLMƏSİ MÜMKÜN DEYİL»

Bəzi sahibkarlar, o cümlədən Səxavət Mustafayev yeni sistemin tətbiqi ilə hər hansı müsbət yeniliyin olmadığını desələr də, Vergilər Nazirliyi bunun əksini iddia edir. Nazirliyin Vergi Siyasəti Baş İdarəsinin rəisi Akif Musayev deyir ki, yeni sistem tətbiq olunandan bütün vergi yoxlamaları vahid dövlət reyestrdə qeydiyyata alınmaqla baş verir.

Vergilər nazirinin müavini Sahib Ələkbərov isə deyir ki, yerli mətbuatda vergi orqanları əməkdaşlarının rüşvət alması, sahibkarlardan müəyyən bir şəxsin adına olan hesab nömrəsinə pul köçürmə tələbləri ilə bağlı yazılanlar araşdırılıb, amma təsdiqini tapmayıb.

### ON-LİNE VERGİ YOXLAMASI

Sahib Ələkbərov ona da bildirir ki, nazirlik vergilərin yoxlama dövriliyini də minimuma endirməyə çalışır. Bu məqsədlə yaxın gələcəkdə elektron audit layihəsinin həyata keçiriləcəyi gözlənilir. Başqa sözlə, vergi orqanı əməkdaşları öz iş yerlərini tərk etmədən, sahibkarla heç bir ünsiyyətə girmədən vergi yoxlamalarını reallaşdıra biləcəklər.

İqtisadçı ekspert Qubad İbadoğlu hesab edir ki, vergi yoxlamalarının online sistemə keçirilməsi bu sahədə rüşvətin qarşısını ala bilər. Hazırda isə, onun sözlərinə görə, şirkətlər qeyri-rəsmi ödənişlər etməkdədirlər. İqtisadçı



Qubad İbadoğlu

ekspertin fikrincə, bir sıra islahatlar həyata keçirilməlidir - vergi elə səviyyədə olmalıdır ki, onu bütün təsərrüfat subyektləri ödəyə bilsinlər; vergi uçotu standartlara uyğunlaşmalıdır; vergi ödəyicilərinin hüquqlarının artırılması istiqamətində Vergi Məcəlləsində dəyişikliklər olmalıdır: *«Ən vacib məsələlərdən biri də məhkəmələrin müstəqilliyinin təmin olunmasıdır ki, hüququ pozulmuş vergi ödəyiciləri son nəticədə hüquqlarını bərpa edə bilsinlər».*

***Ülkər Akifqızı***


Zivər Əhmədbəyovun heykəli

# Tənha heykəlin kədəri

*Mən hər gün ordan keçirəm. Əvvəlcə elə bilirdim Nizamiyə təzə bir heykəl ucaldırlar, çünki heykəl örtülü idi, həm də «Nizami» metrosunun qarşısında idi. Nəhayət, örtüyü götürdülər. Mən növbəti dəfə həmin yerdən keçəndə, heyrətimdən donub qaldım. Təəccüblənən təkcə mən deyildim, çox adam bu hakimiyyətdən belə jest gözləmirdi. Metronun önündə Z.Əhmədbəyova abidə ucaltmışdılar! Bu, Novxanıda M.Ə.Rəsulzadəyə ucaldılmış abidədən sonra cümhuriyyət atalarına ucaldılmış ikinci abidə idi. Sonra... Bəli, sonra Respublika Günü oldu. Bu heykəl sözün əsl mənasında məni fikrə saldı, çox düşündüm, hətta bir gün ayrıca həmin heykələ tamaşa etməyə getdim.*

### BƏS O BİRİ İNSANLAR HANI?

Hətta kiçik bir «araşdırma» aparmaq qərarına gəlirəm. Hakimiyyətin birdən – birə Z.Əhmədbəyova heykəl ucaltmasının səbəbini öyrənməyə çalışıram. Ağlabatan ehtimal yoxdur. Bir ehtimal var ki, hakimiyyət özünün ideoloji və aksioloji iflasını dərk edir, başa düşür ki, H.Əliyevi fetişləşdirməklə yeni bir «milli ideologiya» yaratmaq cəhdi uğursuzluğa düçar olub, insanlar aşkarda bunu büruzə verməsələr də, səmimi söhbətlərdə buna çox ironik yanaşırlar.

İndi deyəsən, bunu dərk etməyə başlayıblar. Amma elə hərəkət edirlər ki, bu, səhvin etirafı kimi başa düşülməsin, axı bunlar etirafları sevmirlər! Bəli, nə səbəbə olursa – olsun, Z.Əhmədbəyova heykəl qoyulması yaxşı haldır. Zira digər cümhuriyyət ataları da var! Hanı M.Ə.Rəsulzadənin heykəli? Niyə görə hələ də F.Xoyskiyə bir abidə qoyulmayıb? Nədən Ə.Topçubaşovun abidəsi yoxdur? Elə bu sualların cavabı da yoxdur. Sanki Z. Əhmədbəyova qoyulan heykəl də boylanır, o biri heykəlləri arayır və tapa bilmir!

**Yazının tam mətnini AzadliqRadiosu.az-da oxuyun.**

***Hüseynbala Səlimov, müstəqil analitik***

# Qori seminariyasının arxivi niyə yandı?


Araşdırıcı-jurnalist Şəmistan Nəzirli

**«Bu kitab bir xeyli böyük ola bilərdi. Ancaq maliyyə ucbatından kiçildi». Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramına araşdırıcı-jurnalist Şəmistan Nəzirli söylədi. Təzəcə çapdan çıxmış «Qoridən gələn qatar» kitabının müəllifi olan Şəmistan Nəzirli kitabın çıxması üçün qohumlarına təşəkkür etdi: «Sağ olsunlar, kömək etdilər. Maliyyə ucbatından gecikirdi»- dedi...**

**QORİ SEMİNARİYASININ SƏNƏDLƏRİ YANIB...**

Vaxtilə Qori, Tiflis, Bakı, Peterburq arxivlərində işləyərkən çoxlu sənədlər, şəkillər gətirdiyini deyən tanınmış araşdırıcı onları qoruyub saxladığını bildirdi. «Niyə bu sənədlərin, şəkillərin çap olunmasını istəyirdim? 1999-cu ilin dekabrında Tiflisdə Şevardnadze ilə Qamsaxurdiya arasında gedən döyüşlərdə Qori seminariyasının arxivi olan binaya mərmi düşüb yanıb. Heç nə xilas edə bilməyiblər. 1876-cı ildən bu yana yığılan sənədlər məhv olub gedib...»

Arxiv binasının yerində gül-çiçək əkildiyini görən araşdırıcı əvvəlcə arxivin başqa yerə köçürüldüyünü zənn edib. Ancaq ona həqiqəti deyiblər. «O saat soruşdum ki, Tamara Mixaylovna Smanidze dururmu? Getdim tapdım. Əvvəl tanımadı. Şəmistan olduğumu deyəndən sonra o qədər ağladı ki... Dediyinə görə, gecə arxivin yandığını eşidib ora gəlib, əlindən bir şey gəlmədiyindən, səhərə kimi alovlara baxıb ağlayıb. Çünki Tamara xanım həyatının 52 ilini qapı-qapı gəzib bu sənədləri toplamışdı».

**YAXŞI Kİ, SƏN SƏNƏDLƏRİN ÜZÜNÜ ÇIXARIB APARDIN!**

Bu sözləri də Tamara xanım Azərbaycandan gələn araşdırıcıya deyib. «O vaxt kseroks yox idi. Mən gürcü fotoqrafına cibimdən pul verib sənədlərin şəklini çəkdirirdim. Dedim, gəlmişdim əlavə sənədlər toplayım. Tamara xanım dedi ki, nə aparıbsan, möhkəm saxla, indi heç nə yoxdur!».

Şəmistan bəy ilk gedişində arxivdə işləyərkən, bəzi qovluqları siçanların gəmirdiyini görüb: «Gördüm Mirzə Hüseyn Əfəndi Qayıbzadənin qovluğunun bir hissəsi yoxdur. Dedim, Tamara xanım, təkcə bizimkiləri belə saxlayırsınız, yoxsa... Dedi yox, özümüzünkülər də bu gündədir. Ən yaxşısı, gəlin öz sənədlərinizi aparın, yaxşı şəraitdə saxlayın».

Şəmistan bəy Bakıya qayıdan kimi bu məsələni Azərbaycan Yazıçılar İttifaqına çatdırır. O dövrdə İttifaqın sədri olan bir yazıçı (dünyasını dəyişdiyindən adını çəkmirik—S.İ.) deyir: ««Mne seyças nekoqda»—yəni indi vaxtım yoxdur»...

**Seminariya barədə çox maraqlı fikirləri eşitmək üçün bu verilişi AzadliqRadiosu.az saytından dinləyin.**

***Sevda İsmayıllı***

# İranda azərbaycanlı yazar Səid Muğanlı həbs olunub


Səid Muğanlı

**İranda Azərbaycan dilində yazan tanınmış şair-publisist və jurnalist Səid Muğanlı həbs olunub. Səid Muğanlı iyunun 5-də valideynlərinin Ərdəbil yaxınlığındakı evində İran İnformasiya və Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən saxlanılıb. Axtarış vaxtı ona məxsus kompyuter, kitablar və digər ləvazimatlar götürülüb. Səid Muğanlı həmçinin İran azərbaycanlılarını maarifləndirmək üçün Azərbaycanca yazılmış ədəbiyyatları fars əlifbasına çevirməklə məşğuldur.**

O, 2007-2008-ci illərdə Bakıda keçirilən ədəbi məclislərin iştirakçısı olub. Bakıdan qayıdandan sonra İranın dövlət quruluşuna qarşı fəaliyyətdə ittiham olunaraq həbs olunmuş, bir müddətdən sonra isə girov müqabilində sərbəst buraxılmışdı.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Əlif Şəfəq: **Miqren - yazar xəstəliyi**



"Ədəbi Azadlıq-2011": **mükafatlandırma iyunun 15-də olacaq**



**Həm diktaturaları, həm də inqilabları lağa qoyan əsər Azərbaycan dilində**



"Pen klub"da debat: **MKM-in gələcəyi necə olacaq?**

MKM-in gələcəyi necə olacaq? Ədəbi birliklərin iştirakı olmadan müsabiqə keçirtmək mümkün deyilmi? PenClub-un canlı efirində bu mövzunun AYB-nin katibi Rəşad Məcid, naşir Şahbaz Xuduoğlu və yazar Etimad Başkeçid müzakirə ediblər.

Etimad Başkeçid: MKM gələcəyi sönük və ümidsiz bir müsabiqədir.

Rəşad Məcid: Şahbaz Xuduoğlu belə gözəl bir layihəni iflasa uğratdı.

Şahbaz Xuduoğlu: Mən nəşr elədiyim əsərlərin mükafat almasına çalışıram.

***Verilişi AzadliqRadiosu.az-da dinləyin.***

# Savalan ətəklərində Şahsevənlər


Village of Shahsever, 10Jun2011

**İranın Şimal-Qərbində yerləşən Savalan dağı Ərdəbil Ostanlığının hər yerindən görünür. İranın ən hündür dağlarından biri olduğu üçün qışı-yayı zirvələri həmişə qarla örtülü olur.**

Nəzərə alsaq ki, coğrafi quruluş olaraq İranın böyük hissəsi səhra və yarımsəhralardan ibarətdir, buna görə Savalanın ətəkləri qış fəslində xizək idmanı sevərlər üçün cəlbedicidir. Yayda isə dağın ətəyində qaynayan kükürdlü müalicəvi "Qotursu" həvəsinə bura gələnlərin hesabına Savalan dağı həmişə adamlarla dolu olur.

Savalan dağı Şahsevən eli üçünsə ikinci yurd yeridir. Belə ki, onlar yüz illərdir hər il yazın əvvəlindən payızın sonlarınadək İranın Bilasuvar, Muğan, Qaradağ bölgələrindən Savalan ətəklərinə təşrif buyurur və heyvandarlıqla məşğul olurlar. Qeyd edək ki, İranın şimalında Ərdəbil və Muğan bölgəsində 32, Meşkində 40, Qaradağda 18 oymaq Şahsevən elinə bağlıdır.

Onlar daimi yaşayış yerlərində kampakt yaşasalar da, Savalanın ətəklərində qurduqları alaçıqlar pərakəndədir. Demək olar ki, bu pərakəndəlik hesabına Şahsevənlər yenidən Arana qayıdanadək digər yerlilərlə ünsiyyətdə olmur, öz ailələri ilə xudmani həyat yaşayırlar.

***Abbas Atilay***

# Türkiyə düzgün yoldadırmı?



**İyunun 12-si Türkiyədə parlament seçkiləridir. Seçki ərəfəsi beynəlxalq sorğu şirkəti Pew Research Center Türkiyədə və onun qonşularında sorğu aparıb. Türkiyədə rəyi soruşulanların 48 faizi hesab edir ki, baş nazir Ərdoğan və onun Ədalət və Kalkınma Partiyası (AKP) Türkiyəni düzgün istiqamətdə aparır, 49 faiz isə bu yolu yanlış hesab edir. Bu, keçən illə müqayisədə böyük irəliləyişdir. Keçən il narazılar 60 faiz idi. 2009-cu ildə isə narazılar 66 faizə çatırdı.**

Türkiyə düzgün yoldadırmı? –sualına cavab rəyi soruşulanın dindarlığından asılı olub. Kim ki, gündə 5 dəfə namaz qılır, onların 64 faizi hesab edir ki, Türkiyə düz yoldadır. Kim ki, nadir hallarda məscidə gedir, onların 67 faizi ölkənin tutduğu yolu yanlış hesab edir.

Cavab yaşdan da asılı olub. Yaşlılar ölkənin tutduğu yoldan razıdırlar. Yaşı 50-dən yuxarı olanlar arasında 56 faiz hesab edir ki, Türkiyə düz yolla gedir. Yaşı 30-a çatmayanlar arasında isə razı olanlar 42 faizdir.

**DOLANIŞIQDAN RAZILAR ARTIR**

Türkiyə iqtisadiyyatının indiki durumu necədir? – sualına cavabda 49 faiz hesab edir ki, yaxşıdır, 48 faiz isə vəziyyəti pis hesab edir. Keçən il vəziyyəti pis hesab edənlər 65 faiz idi. Ərdoğan hakimiyyətə gələndə vəziyyətdən razılar cəmi 14 faiz idi.

**TÜRKİYƏNİN DÜNYADAKI YERİ**

Rəyi soruşulanların 62 faizi dünya siyasətində Türkiyənin tutduğu yolu düzgün hesab edib.

Ərdoğan Türkiyənin ərəb qonşularında da yüksək qiymət alıb. Misirdə rəyi soruşulanların 78 faizi Türkiyənin xarici siyasətini bəyənir, 21 faiz bəyənmir, qalan 1 faiz ya cavab verməyib, ya da cavab verməkdə çətinlik çəkib.

**<u>Ölkələr üzrə bu göstəricilər belə bölünüb:</u>**

**Türkiyənin xarici siyasətini**

| | bəyənir (%) | bəyənmir (%) |
|---|---|---|
| Rusiya | 27 | 30 |
| Almaniya | 25 | 69 |
| İordaniya | 72 | 23 |
| Fələstin ərazisi | 52 | 47 |
| Pakistan | 39 | 16 |
| Fransa | 36 | 59 |
| İsrail | 9 | 87 |

**TÜRKİYƏNİN GƏLƏCƏYİ**

Türkiyə öz gələcəyi üçün daha çox Avropaya baxmalıdır, yoxsa Yaxın Şərqə? Bu suala cavablar belə bölünüb:

17 faiz hesab edir ki, Türkiyənin gələcəyi Avropadadır.

25 faiz hesab edir ki, Türkiyə gələcəkdə daha çox Yaxın Şərqə baxmalıdır.

37 faiz hesab edir ki, bunların hər ikisi Türkiyənin gələcəyi üçün vacibdir.

Avropaya qovuşmaq ən çox gənclər arasında populyardır: 18-29 yaşlılar arasında 61 faiz deyib ki, Türkiyənin gələcəyi Avropadır. Sorğuda maraqlı detallardan biri də budur ki, Türkiyənin Avropa Birliyinə qoşulmağına ən çox tərəfdar olan etnik kürdlər olub. Sorğuda etnik kürdlərin 76 faizi deyib ki, Türkiyənin Avropa Birliyinə qoşulmağı yaxşıdır. Müqayisə üçün, Türkiyə üzrə bu göstərici 52 faizdir.

Türkiyənin Avropa Birliyinə üzv olmasının tərəfdarları Avropanın böyük dövlətləri arasında İspaniyada, Britaniyada 50 faizdən çoxdur: İspaniya - 62 faiz, Britaniya-51 faiz. Fransa, Almaniya kimi ölkələrdə isə Türkiyənin Avropa Birliyinə üzvlüyünə tərəfdar olanlar 50 faizə çatmır: Fransa-38%, Almaniya-27 %.

***Elxan Nəsibli***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**

## Müsəlman qadınlar öz hüquqları uğrunda cihada başlayır



Inspire-Jihad, in UK

**Böyük Britaniyada bir qrup müsəlman qadın "Zorakılığa qarşı cihad"a başlayıb. "İnspire" (Ruhlandır) adlı bu qrupun məqsədi qadın hüquqlarını gündəmə gətirməkdən ibarətdir. Bu qrupun niyyəti müsəlman qadınlara öz potensialını üzə çıxartmaqda yardımçı olmaqdır. Qadınların digər məqsədi də "cihad" terminini ekstremizmdən ayırmağa nail olmaqdır.**

"İnspire"in təsisçisi Sara Xan deyir ki, əslində "cihad" ekstremistlərin "müqəddəs savaş" kimi qələmə verdiyi vəhşiliklər deyil, Allah yolunda aparılan mübarizədir. Onun sözlərinə görə, Böyük Britaniyada yaşayan müsəlman qadınlar zorakılığın istənilən növünə qarşı mübarizə aparacaqlar: "Biz sülh uğrunda cihad aparırıq. Bu vaxtadək biz çox vəhşiliklərin şahidi olmuşuq. Ekstremistlərin hərəkətləri bizim cəmiyyətlər arasında ayrı-seçkiliyə gətirib çıxarır. İslam bütün dünya üçün əsas inanc olmaq əvəzinə, zorakılıq və digər mənfi halların, o cümlədən qadınların sıxışdırılmasının sinoniminə çevrilib".

Sara Xan "The Guardian" qəzetinə müsahibəsində deyib ki, onların başladığı kampaniya təkcə hüquqları pozulan britaniyalı qadınları yox, ümumiyyətlə, zorakılığa qarşı çıxanları birləşdirəcək. "İnspire" rəhbəri əmindir ki, Britaniyada kitab mağazalarında İslama aid kitablar bu dində qadın hüquqlarını düzgün təsvir etmir. Ona görə də onlar həm də qadınların maarifləndirilməsi ilə məşğul olacaqlar.

## Polkovnik Budanov öldürülüb

*Çeçenistanda törətdiyi cinayətlərə görə 10 il azadlıqdan məhrumetmə cəzası almış polkovnikYuri Budanov öldürülüb. O, Çeçenistanda 18 yaşlı Elza Kunqayevanı işgəncə verib öldürməkdə ittiham edilmişdi. Amma 2009-cu ildə vaxtından əvvəl azadlığa çıxmışdı. Rusiya KİV-lərinin məlumatına görə, onu iyunun 10-da naməlum şəxs güllələyib. Mediada çeçenlərin bu qətlli törətdiyi də iddia olunur.*

Qətl günortaya yaxın Komsomol prospektində, paytaxtın mərkəzində baş verib. Naməlum adamlar ona xarici avtomobildən atəş açıblar. Bəzi xəbərlərə görə, Budanova 6 atəş açılıb, onlardan 4-ü polkovnikin başına dəyib. İlkin məlumatlara görə, hadisəni iki nəfər törədib.

Vəkil Stanislav Markelov və jurnalist Anastiya Baburova Budanovun vaxtından əvvəl azad olmasına etiraz olaraq keçirdikləri mətbuat konfransından sonra öldürülmüşdülər. İkinci çeçen müharibəsi zamanı polkovnik Yuri Budanov 160-cı tank alayına rəhbərlik edirdi. O, gənc qızın qətlindəın başqa, Çeçenistanda müxtəlif cinayətlərdə və qətllərdə şübhəli bilinirdi.

***Turxan Kərimov***

# AzadlıqRadiosunda verilişlər:

<u>Unutmayın:</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar













# "Simsiz teleqraf"

## YALNIZ BİZDƏ BELƏ OLUR



06.06.2011

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird 13$^{0}$E**

**Kanalın adı**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

**24 saat**

**Türksat 42$^{0}$ E**

**Kanalın adı**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu
## Ədəbiyyat Portalı

# “OXU ZALI”



**"Ədəbi Azadlıq-2011"**

Qaliblər bəllidir.
Mükafatlandırma
iyunun 15-də olacaq



## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz